*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 326-332*

https://doi.org/10.62837/2025.6.326

**FƏRQANƏ QURBANLI**
*Daxili İşlər Nazirliyinin Polis Akademiyası*
*qurbanli.ferqane@gmail.com*

# QƏDİM TÜRK MİFOLOGİYASINDA VƏ ŞİFAHI XALQ ƏDƏBİYYATINDA QOÇ SİMVOLİZMİ: DUALİZM, KEÇİD MƏRASİMLƏRİ VƏ ARXETİPİK TƏBƏQƏLƏR

**Xülasə:**

Qədim türk mifologiyasında və şifahi xalq ədəbiyyatında qoç (ağ qoç və qara qoç) obrazının bir neçə simvolik və mifoloji anlamı vardır. Müxtəlif türk xalqlarının inanclarını, şaman mərasimlərini, eləcə də Nors, Kelt və Skandinaviya miflərini müqayisəli şəkildə araşdırmaq qoçun ruhani dünyalar arasında vasitəçi rolunu ön plana çıxarır. “Məlikməmməd” nağılı və digər xalq nağılları vasitəsilə dualizm, yəni işıq və qaranlıq, yaxşı və pis, həyat və ölüm arasında tarazlıq konsepsiyası vardır. Dini görüşlərin dəyişməsi fonunda qoç və at obrazlarının transformasiyası da mifologiyada mühüm əhəmiyyət kəsb edir. Burada həmçinin qoç simvolunun universal mifoloji arxetip kimi digər xalqlarda da qorunub saxlanılması, müxtəlif dini-fəlsəfi sistemlərdə yeni məna qazanması və Azərbaycan bədii düşüncəsindəki təzahürləri də diqqət mərkəzində saxlanılır. Bu yanaşma qoç obrazının təkcə keçmişə aid deyil, həm də müasir dövrdə kollektiv yaddaşda yaşadığını göstərir.

**Açar sözlər:** qoç kultu, türk mifologiyası, dualizm, şifahi xalq ədəbiyyatı, simvollar, keçid mərasimləri

Folklorda rast gəlinən qoç obrazı insanların dünyalar arasında səyahət etməsinə kömək edən simvolik vasitə kimi çıxış edir. Bu inam qədim türk mifoloji sisteminin mühüm təbəqəsini təşkil edir. İnsanların ölüm və ya mənəvi transformasiya zamanı bir dünyadan digərinə keçid edərkən, qoçun bələdçi və ya qoruyucu rolunda çıxış etməsi türk xalqları, xüsusən də azərbaycanlılar, türkmənlər, qırğızlar və taciklər arasında geniş yayılmışdır. Bu mifoloji sistemin kökləri qədim türklərin kosmoqonik təsəvvürlərinə gedib çıxır və ruhun ölümdən sonra səyahətini, yaxud qəhrəmanların fövqəltəbii aləmlərə keçidini izah edir.

Əslində qoç obrazı yalnız türk mifoloji düşüncəsində deyil, bir çox başqa xalqların, xüsusilə qədim Skandinaviya və Kelt mifologiyalarında da mühüm yer tutur. Dünya mifik düşüncə sistemində qoç və keçi məhsuldarlığın, bolluğun, uğurun və bəxtin simvolu kimi qəbul olunub. Keçi və qoç obrazları məhsuldarlıq ayinlərinin, qurban mərasimlərinin və firavanlıq dualarının ayrılmaz hissəsi olmuşdur.

Xüsusilə Nors mifologiyasında qoçlar və keçilər müqəddəs simvollar sırasında yer alır. Vikinqlər bu heyvanları tanrılara qurban verir, bununla da ilahi qüvvələrin rəğbətini qazanmağa çalışırdılar. Bu ayinlərdə heyvanın simvolik anlamı

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 326-332*

daha ön plana çıxırdı: onun həyat enerjisi və ruhu ilahi aləmin qüvvələrinə təqdim olunurdu. Nors mifologiyasında döyüşçü ruhu, dirilmə və yenidən doğulma ideyası ilə bağlı olan bu heyvanlar həm də bir çox şeirlərdə, dastanlarda və miflərdə öz əksini tapmışdır. Məsələn, Kelt mifologiyasında da qoç başı obrazı qoruyucu güc, döyüşkənlik və bərəkətin rəmzi kimi çıxış edir. Qoç başlı nişanlar qədim Kelt qəbilələrinin bayraqları və döyüş silahlarında geniş istifadə olunurdu.

Skandinaviya mifologiyasına məxsus İldırım tanrısı Tor (Thor) da qoç və keçi obrazları ilə sıx əlaqələndirilir. Torun arabasını Tanqrisnir və Tankostr (Tanngrisnir və Tanngnjóstr) adlı sehrli keçilər çəkirdi. Bu keçilərin fövqəltəbii xüsusiyyəti onların öldürülüb yenidən dirildilə bilməsi idi. Tor onları qurban verir, sonra isə sehrli çəkici ilə onları dirildirdi. Bu mif yenidən doğulma, əbədiyyət və həyat enerjisinin dövri təzələnməsi ideyasını təcəssüm etdirir. Eyni zamanda bu keçilər bərəkət və gücün mənbəyi kimi qəbul edilirdi. Bu mifoloji motiv bir daha sübut edir ki, keçi və qoç simvolları təkcə yerli, regional deyil, universal bir mifoloji arxetipdir [6].

Diqqət yetirsək görərik ki, qədim türk inanclarında da dünyanın quruluşu oxşar dualist və triadik model əsasında təsəvvür olunurdu. Türk kosmoqoniyasında dünya üç əsas hissədən ibarət idi: Orta Dünya, Üst Dünya, Alt Dünya

Bu dünyaların arasında səyahət etmək yalnız fövqəltəbii varlıqların və ya ilahi qüvvələrlə təmasda olan qəhrəmanların taleyinə yazılmışdı. At, qoç, bəzən də quşlar (məsələn, Simurq) bu səyahətin mümkün vasitələri kimi çıxış edirdi. Qədim türk ayinlərində və şaman mərasimlərində ağ qoçun göy tanrısına, qara qoçun isə yeraltı ruhlara qurban verilməsi bu üçtərəfli dünya təsəvvürünün ən aydın ifadəsidir. Rənglərin simvolikası burada mühüm rol oynayırdı: ağ – nur, işıq və həyatın; qara – qaranlıq, ölüm və sirli qüvvələrin rəmzidir.

Eyni zamanda, qədim türklərdə ruhun dünyalar arasında hərəkəti "uçma" prosesi bir çox mifoloji obrazların formalaşmasına təkan verib. Bu baxımdan qoç obrazı yalnız fiziki deyil, həm də metafizik anlam daşıyırdı: ruhun göylərə yüksəlişini və ya yeraltı dünyaya enişini təmsil edirdi. Bütün bu paralellər göstərir ki, qədim türklərin dünyagörüşündə qoç və keçi kimi heyvan obrazları təkcə təsərrüfat və gündəlik həyatla bağlı deyil, eyni zamanda sakral, kozmik və fəlsəfi düşüncənin daşıyıcıları olmuşdur. Bu mifik model həm türk şifahi xalq ədəbiyyatında, həm də digər xalqların mifologiyalarında yüzillər boyu qorunub saxlanmışdır və bu gün də onların bədii təfəkkürünün ayrılmaz hissəsidir.

*"Qoyun və özəlliklə ağ qoç qədim türklərdə Göy Tanrıya təqdim olunan qurbanlar arasında idi. Çin qaynaqlarına görə Tabğaclar Göy Tanrı ayini olaraq tanınan ayində ağ buzov, qoç və at qurban edirdilər"* [9]. Şaman mərasimlərində də qoçu tanrılara qurban kimi kəsirdilər; ağ qoç göy tanrısına, yaxşı ruhlara, qara qoç isə yeraltı ruhlara fəda edilərdi.

Maraqlı məqamdır ki, bu sonrakı əsrlərdə dinlərdə də öz əksini tapıb. Xristianlıqda "Ağ quzu", yəni "Allahın Quzusu" ifadəsi var ki, bu İsa Məsihin simvolik adıdır. İsa Peyğəmbərin çarmıxda özünü qurban verməsi insanların xilası və günahlarının bağışlanması üçün etdiyi qurbanı ifadə edir.

İslam dinində də isə qoyun müqəddəs qurbanlıq heyvan kimi qəbul olunub. Qurani-Kərimin Saffat surəsinin 100-111-ci ayələrində də Hz.İbrahimin oğlunu qurban etmək istəyərkən Allah tərəfindən qoyun göndərildiyi və bundan sonra qurban kimi insan yox, yalnız heyvan kəsilməsinin buyurulması əks olunmuşdur.

Ağ qoç və qara qoç obrazları yeraltı dünya və göy aləmini simvolizə edir. Bu məsələni "Məlikməmməd" nağılı üzərindən təhlil edək. *"Qız dedi: -İndi ki, razı olmursan, bax bu dediklərimə qulaq as. Kəndiri kəsəcəklər, yenə quyunun təkinə düşəcəksən. O vaxt döyüşə-döyüşə iki qoç gələcək; biri ağ, biri qara. Ağ qoç qara qoçu qovacaq, onda atıl min ağ qoçun belinə. Ağ qoçun belinə minən kimi işıqlı dünyaya çıxacaqsan. Qara qoça minsən, qaranlıq dünyaya düşəcəksən. Məlikməmməd qızın dediklərinə qulaq asandan sonra, onun belinə ip bağladı, qızı yuxarı çəkdilər. Kiçik qız quyudan çıxanda qardaşları ağılları başlarından çıxdı, dedilər: -Məlikməmməd kiçik qardaş olduğu üçün gözəl qızı özünə götürəcək. Qardaşların paxıllığı tutdu, yarı yolda Məlikməmmədin kəndirini kəsdilər. O, şappıltıynan quyunun təkinə düşdü. Quyuda Məlikməmməd bikef oturmuşdu. Bir də gördü ki, qız deyən ağ qoçnan qara qoç budu, döyüşə-döyüşə gəlir. Məlikməmməd o saat sıçrayıb ağ qoçun belinə mindi. Amma ağ qoç onu qara qoçun belinə tulladı. Qara qoç da Məlikməmmədi götürüb qaranlıq dünyaya apardı…"* [3, 53].

Bu motiv təsdiqləyir ki, qədim türk dünyagörüşündə at kimi qoç da dünyalar arasında mediatorluq funksiyasını icra edir. Bu baxımdan nağılda qara qoçun Məlikməmmədi qaranlıq dünyaya aparması alimlər tərəfindən qoçun insan ruhunun o dünyaya daşıdığına dair inamla əlaqələndirilir. Həqiqətən də nağılı oxuduqca qarşımıza çoxlu sehirli qüvvələr, məsələn, simurq quşu, div və s. çıxır. Amma burada yeraltı dünya ilə üst dünyanın keçid vasitəsi kimi məhz qoç obrazı seçilib. R.Qafarlı isə qoçun mistik əhəmiyyətini belə əsaslandırır: *"Qəhrəmanın yeraltı dünyaya səyahəti – keçmişə qayıdış kimi səslənir. Adi insan olan Məlikməmməd qaranlıq dünyada müxtəlif şər (div, əjdaha, qara qoç) və xeyir (Simurq quşu, ağ qoç, gözəl qızlar) qüvvələrlə görüşür, onlarla əlaqə və münasibətdə mifikləşir"* [7]. Doğurdan da Məlikməmməd sehirli qüvvələr vasitəsilə şərə qalib gələrək qəhrəman statusu qazanır. Amma xalq təfəkkürü bunu ona sadə yolnan yox, hər iki dünyada sınaqdan keçirtməklə verir.

Maraqlıdır ki, bu nağılda da at (sarı, qırmızı rənglərdə) motivi var. Lakin ondan dünyalararası səyahət vasitəsi kimi kimi yox, sırf hakimiyyət üstündə mübarizə, xeyrin şər üzərində qalibiyyəti simvolu kimi istifadə edilmişdir. Xalq arasında "*at muraddır*" deyimi əbəs yerə deyilməyib.

Deməli, həm at, həm də qoç simvolu xalq ədəbiyyatında dualizmin, yəni işıq və qaranlıq, yaxşı və pis, həyat və ölüm, yaradıcı və dağıdıcı güclər arasında olan tarazlığın ifadəçisi kimi çıxış etmişlər.

"Ağ qoç" və "qara qoç" anlayışları bir çox nağıllarda dərin simvolik məna daşıyır. Bu təsəvvürün izlərinə "Qızıl qoç" nağılında da rast gəlməkdəyik. Nağılda deyilir ki: "*Gördü şəhərin kənarında bir çoban qoyun otarır. Amma özü namaz qılır. Məlik yavaş-yavaş çobana yaxınlaşdı, gördü çoban namaz qılmağı əməlli bilmir. Elə bircə kəlmə: ağ qoyun, qara qoyun, başımı yerə qoyum, Allahü əkbər, -deyib başını yerə qoyur*" [4, 59]. Çobanın namazı qeyri-ənənəvi şəkildə qılmasının, yəni "*Ağ qoyun, qara qoyun, başımı yerə qoyum, Allahü əkbər*" deməsi xalq düşüncəsinə uyğunlaşdırılmış dini təfəkkürün əksi hesab olunur. Bu kiçik dua vasitəsilə çoban tərəfindən ağ qoyun, qara qoyun timsalında xalq təsəvvüründəki ikili dünya xatırlanır, *"Başımı yerə qoyum"* deməklə Allaha itaətkar olduğunu bildirir və sonuncu *"Allahü-əkbər"* səsləndirməklə Tanrıya inandığını ifadə edir. Görünür ki, bu İslama yeni keçid dövrünə aid nağıldır. Çünki 2 baxış qarşı-qarşıya gətirilir, çoban sakral dünyaya keçid kimi əvvəlcə ağ və qara qoyunun adını çəkir. Daha sonra isə *"Allahü-əkbər"* deməklə dualist dünyadan vahid Tanrıya doğru keçid edir, dua ilə Allahla əlaqə qurur. Bununla da transformasiyanı, yəni bir dövrün sonunu və digərinin başlanmasını görürük.

Özünün bədii nəsri ilə ədəbiyyat tariximizdə xüsusi mövqeyi olan xalq yazıçısı Anarın utopik və antiutopik nağıllardan ibarət olan "Ağ qoç, qara qoç" əsəri də "qoç" kultunun təsviri baxımından olduqca maraqlıdır. Bu əsər özündə nağıl xronotopunu daşıması baxımından diqqəti cəlb edir. Anarın yaradıcılığında "Ağ qoç, qara qoç" poetika baxımından da yeni hadisədir. Başlıca cəhətlərdən biri, bəlkə də, birincisi budur ki, əsərin strukturunda mifoloji mətndən, mifik obrazlardan yaradıcılıqla istifadə olunmuşdur. Simvolik başlıqla adlandırılan əsər əslində iki povestin birləşməsindən yaranan, arxetipik struktur üzərində qurulan romandır [8, 21]. Yazıçının ikinci nağılın əvvəlində verdiyi qeyddən məlum olur ki, utopik və antiutopik cəmiyyətdəki hadisələr eyni zamanda baş verir. Qeyddə deyilir: *"İkinci nağılda cərəyan edən hadisələr xronoloji zaman etibarilə birinci nağılın davamı deyil. Bu iki bir-birinə alternativ olan olaylar eyni vaxt kəsiyində təsəvvür edilir"* [2]

P.Bəkirqızı roman haqqında danışarkən qeyd edir ki, alt qatda daha arxaik olan nağıl süjeti, onun üzərində isə etnosun formalaşma çağlarının məhsulu olan dastan süjetinin qurulması tarixin mərhələli inkişafına işarədir [5]. Tədqiqatçının fikrincə, Anarın "Ağ qoç, qara qoç" əsərində "Məlikməmməd nağılı"nın xronotopu dekonstruksiya olunur. Bu şəkildə antiutopiya janrının qanunlarına uyğun olaraq yeni mifopoetik dünya modeli yaradılır.

Türk xalqlarının mifoloji dünyagörüşündə və qədim ad sistemində zoonimlərin heyvan adlarının xüsusi yeri olmuşdur. Bu adlar yalnız bir heyvanın fiziki xüsusiyyətlərini ifadə etməklə kifayətlənmir, həm də həmin ad daşıyıcısına

müəyyən simvolik və sakral məna yükləyir. Bu adların semantikasını başa düşmək türk mifoloji sisteminin, qədim türk adlandırma qaydalarının və etnoqrafik düşüncənin izahında mühüm açar rolunu oynayır. Bu baxımdan Ə.Tanrıverdi "Kitab"da zoonimlərin semantikasını qədim türk ad sistemi, türk tarixi və etnoqrafiyası kontekstində şərh edərək mühüm nəticələrə gəlir və bu nəticələrini məntiqi və inandırıcı şəkildə əsaslandırır.

Ə.Tanrıverdi qədim türk ad sisteminin mühüm xüsusiyyətlərindən biri kimi zoonimlərin semantik şaxələnməsini və onların adlandırmada rolunu vurğulayır. Tədqiqatçının fikrincə, türk toplumlarının həyatında heyvan obrazlarının və onların adlarının xüsusi önəmi olmuşdur və bu adlar bəzən mistik anlamlar daşımaqla bərabər, sosial statusu, qəhrəmanlıq xüsusiyyətlərini və ya toplumun dünya görüşünü ifadə etmişdir.

Qorqudşünaslıqda geniş yayılmış "Qarağuc" at adına dair müxtəlif izahlar mövcuddur. Ən çox yayılan fikrə görə, bu ad "hamının minə biləcəyi at" kimi başa düşülmüşdür. Lakin Ə.Tanrıverdi haqlı olaraq bu yanaşmanın qeyri-dəqiq olduğunu göstərir və əsaslandırır ki, "Qarağuc" adı məhz "*Qara qoç başlu at*" mənasında işlənmişdir. Tədqiqatçı semantik yükə əsaslanaraq bildirir ki, "Qarağuc" adının digər "Kitab"da rast gəlinən at adları ilə eyni semantik modeldə formalaşması daha real görünür. Məsələn, "*Keçi başlu Keçər ayğır*" adında "Keçi başlu" ifadəsi heyvanın başının keçiyə bənzədiyini göstərir. Eynilə "*Toğlu başlu Turı ayğır*" adında da "Toğlu başlu" ifadəsi var və burada heyvanın başının toğluya bənzədiyi nəzərdə tutulur [1, 227].

Bu analoji yanaşmadan çıxış edərək tədqiqatçı təklif edir ki, "Qarağuc" adında da eyni model tətbiq edilmişdir və bu adın ilkin forması "*Qara qoç başlu at*" olmuşdur. Buradakı "başlu" sözü isə zamanla ellipsisə uğrayaraq ixtisar edilmiş və nəticədə "Qarağuc" formasında sabitləşmişdir. Türk dillərində bu cür ellipsis halları geniş yayılmışdır və bu da fikrin dilçilik baxımından məntiqiliyini gücləndirir. Türk mifologiyasında və qəhrəmanlıq eposlarında heyvan adlarının simvolikliyi bir çox hallarda onların fiziki xüsusiyyətləri ilə deyil, məhz arxetipik, mifoloji mənalarla bağlı olmuşdur. Qoç başı isə qədim türk dünyagörüşündə gücün, döyüşkənliyin, qoruyuculuğun və bəzən sakral keçidin simvoludur. Qədim türklər üçün qoç yalnız bir heyvan deyil, həm də mistik anlam daşıyan, müqəddəs sayılan bir varlıq idi. Bu səbəbdən "*Qara qoç başlu* at" ifadəsi həmin atın mistik güc daşıyıcısı kimi qəbul olunduğunu göstərir. Bəzi qədim mənbələrdə və eposlarda da atların heyvan başlı təsvir edilməsi bu fikri əlavə olaraq dəstəkləyir.

**Nəticə:** Araşdırmalar göstərir ki, qoç obrazı türk xalqlarının qədim inanclarında, şifahi xalq ədəbiyyatında və mifoloji dünyagörüşündə mühüm yer tutur. Ağ qoç və qara qoç simvolları dualist dünyagörüşünün təcəssümü olmaqla yanaşı, həm də insanların ruhani aləmlərlə əlaqəsinin ifadəsidir. Nağıllarda, mərasimlərdə, dini ayinlərdə qoç obrazının istifadə olunması bu heyvanın insan düşüncəsində sakral

bir məna daşıdığını sübut edir. Dini inancların dəyişməsi fonunda da qoç kultu öz yerini qoruyub saxlamış və yeni mənalar qazanmışdır. Bu isə bir daha xalq yaddaşının və mifoloji arxetiplərin zaman və məkandan asılı olmayaraq davamlılığını təsdiqləyir. Eyni zamanda, qoç kultu Azərbaycan ədəbiyyatında və folklorunda həm fərdi, həm də ictimai kimliklərin formalaşmasında, tarixi-mədəni yaddaşın qorunmasında mühüm rol oynayır. Bu obraz arxaik inanclarla müasir bədii yaradıcılığı birləşdirən körpü rolunu oynayaraq milli-mədəni identikliyin mühüm elementlərindən birinə çevrilmişdir.

## Ədəbiyyat

1. “Dədəm Qorqudun Kitabı” tədqiqat işığında. (Əzizxan Tanrıverdi qorqudşünaslıqda) Tərtibçi və redaktor: İlham Abbasov. Bakı, “Elm və təhsil”, Bakı, 2015, 268 s.
2. Anar. Seçilmiş əsərləri. Bakı: Lider nəşriyyatı, 2004, s. 357
3. Azərbaycan nağılları. IV cild. “Şərq-Qərb”, Bakı, 2005, 336 s.
4. Azərbaycan nağılları. V cild. “Şərq-Qərb”, Bakı, 2005, 304 s.
5. Bəkirqızı (İsayeva) P. Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu. Bakı: Elm və təhsil, 2015, s. 214
6. Eliade M. Şamanizm. Editor: Yavuz Alagan, İstanbul, “İmge” kitabevi, 2018. - 628 s.
7. Qafarlı R. Mifologiya. 6 cilddə. I cild. MİFOGENEZ: Rekonstruksiya, struktur, poetika. “Elm və təhsil”, Bakı, 2015, 457 s.
8. Osmanova G.Z. Çağdaş Azərbaycan nəsrində mifologizm (1980-2010-cu illər). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. Bakı, 2017, - 29 s.
9. Yaşar Çoruhlu. Türk mitolojisinin ana hatları. İstanbul, 2022, 325 s.

**Фарганэ Курбанлы**

## Древнетюркская мифология и устное народное творчество: символизм барана, дуализм, переходные обряды и архетипические слои

**Аннотация:** В древнетюркской мифологии и устном народном творчестве образ барана (белый и черный баран) имеет несколько символических и мифологических значений. Сравнительное исследование верований различных тюркских народов, шаманских обрядов, а также мифов норвежской, кельтской и скандинавской культур выявляет посредническую роль барана между духовными мирами. Через сказки, такие как "Меликмаммед", раскрывается концепция дуализма равновесия между светом и тьмой, добром и злом, жизнью и смертью. Трансформация образов барана и коня на фоне изменения религиозных взглядов также имеет важное значение в мифологии. Особое внимание уделяется сохранению образа барана как

универсального мифологического архетипа в различных народах, его новым смысловым значениям в различных религиозно-философских системах и проявлениям в азербайджанской художественной мысли. Такой подход демонстрирует, что образ барана живет не только в прошлом, но и в коллективной памяти современности.

**Ключевые слова:** культ барана, тюркская мифология, дуализм, устное народное творчество, символы, переходные обряды.

**FARGANA GURBANLI**

**RAM CULT IN ANCIENT TURKIC MYTHOLOGY AND ORAL FOLK LITERATURE: DUALISM, TRANSITIONAL RITUALS, AND ARCHETYPAL LAYERS**

**ABSTRACT:**

In ancient Turkic mythology and oral folk literature, the ram (white ram and black ram) holds multiple symbolic and mythological meanings. A comparative study of beliefs among various Turkic peoples, shamanic rituals, as well as Norse, Celtic, and Scandinavian myths highlights the ram's mediating role between spiritual worlds. Through tales like "Melikmammad" and other folk stories, the concept of dualism balance between light and darkness, good and evil, life and death is revealed. The transformation of ram and horse imagery amid changing religious views also plays a significant role in mythology. Attention is also given to the ram symbol's preservation as a universal mythological archetype across different peoples, its new meanings in diverse religious-philosophical systems, and its manifestations in Azerbaijani artistic thought. This approach shows that the ram image lives not only in the past but also in the collective memory of the present.

**Keywords:** ram cult, Turkic mythology, dualism, oral folk literature, symbols, transitional rituals.

**Rəyçi: Ramazan Qafarov**
*Filologiya elmləri doktoru, professor*